Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illiyi ilə əlaqədar yubiley tədbiri və beynəlxalq elmi-praktik konfransın yekunları barədə


H E S A B A T

Məruzəçi:
Səbuhi Gülməmmədov

Azərbaycan Respublikası Auditorlar Palatasının icraçı direktoru

Bakı şəhəri,
16 oktyabr 2026-cı il

Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illiyinin qeyd edilməsi ilə əlaqədar Auditorlar Palatası sədrinin “Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illik yubileyinin qeyd edilməsi barədə” 2025-ci il 26 avqust tarixli 10-1/3-3-25/2025 nömrəli Sərəncamı ilə Auditorlar Palatasında Təşkilat Komitəsi yaradılmış və 16 bənddən ibarət Tədbirlər Planı təsdiq olunmuşdur.



AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI

SƏRƏNCAM

26 avqust 2025-ci il 10-1/3-3-25/2025

Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illik yubileyinin qeyd edilməsi barədə


Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Ulu Öndər Heydər Əliyev tərəfindən 1994-cü il 16 sentyabr tarixində imzalanmış “Auditor xidməti haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq, 1996-cı il 5 aprel tarixindən fəaliyyətə başlamış Azərbaycan Respublikası Auditorlar Palatasının 2026-cı il 05 aprel tarixində 30 illiyinin qeyd edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illiyinə həsr olunmuş yubiley tədbirinin keçirilməsi məqsədəmüvafiq hesab edilsin.
2. Yubiley tədbirinin yüksək səviyyədə və vaxtında keçirilməsini təmin etmək məqsədilə Auditorlar Palatasında aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

Təşkilat Komitəsinin sədri:
Vahid Novruzov – Azərbaycan Respublikası Auditorlar Palatasının sədri

Təşkilat Komitəsinin müavinləri:
Fəxrəddin İsmayılov - Auditorlar Palatasının sədr müavini;
Səbuhi Gülməmmədov - Auditorlar Palatasının icraçı direktoru,
Təşkilat Komitəsinin katibi


Təşkilat Komitəsinin üzvləri:
Qəşəm Bayramov - Auditorlar Palatası Aparatının rəhbəri;
Fəqan Qarayev - Auditorlar Palatası sədrinin müşaviri;
Nəcəf Talıbov - Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri;
Şəfiqə Əsgərova - Daxili auditor;
Elnur İbrahimov - Auditin hüquqi tənzimlənməsi və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə idarəsinin rəisi;
İlqar Vəliyev - Palata Şurasının üzvü, “Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi.” şirkətinin Azərbaycan Respublikasındakı



Azərbaycan Respublikası
Auditorlar Palatasının sədrinin
2025-ci il 26 avqust tarixli 10-1/3-3-25/2025
nömrəli sərəncamı ilə təsdiq edilmişdir

Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illik yubileyinin qeyd edilməsi ilə əlaqədar
TƏDBİRLƏR PLANI

№	Tədbirin adı	İcra müddəti	İcraya məsul şəxslər	Qeyd
	I. Təşkilati tədbirlər			
1.	Müvafiq dövlət qurumlarına yubileylə əlaqədar məlumat xarakterli məktubların hazırlanması və göndərilməsi	Oktyabr 2025	Səbuhi Gülməmmədov Altay Cəfərov Fəqan Qarayev Nigar İsmayılova	
2.	Tədbirlə əlaqədar məktubların göndərilməsi: - Yerli qurumlara; - Auditorlar Palatasının üzv olduğu beynəlxalq peşəkar qurumlara; - Auditorlar Palatasının əməkdaşlıq etdiyi xarici ölkələrin audit və mühasibatlıq qurumlarına.	Noyabr 2025	Fəqan Qarayev Vüqar Sərdarov Maral Osmanova	
3.	Auditorlar Palatasının keçdiyi dövr üzrə "Auditorlar Palatası-30 il" sənədli filmin hazırlanması	Oktyabr 2025 - 2026	Səbuhi Gülməmmədov Fəqan Qarayev Zaur Almazov Məhluqə Hüseynova	
4.	"Auditorlar Palatası-30 il" yubiley döş nişanının hazırlanması	Oktyabr 2025 - Fevral 2026	Qoşqar Əhmədov İlqar Vəliyev Afiqə Bayramova	
5.	"Auditorlar Palatasına üzvlük" döş nişanının hazırlanması	Noyabr 2025 - Mart 2026	Səbuhi Gülməmmədov Fəqan Qarayev Qoşqar Əhmədov	
6.	Tədbirin təşkili ilə əlaqədar sponsorlarla işin aparılması	2026	Səbuhi Gülməmmədov Qoşqar Əhmədov	
7.	Daxil olan təbriklərin toplanması və nəşrə hazırlanması	Fevral-Mart 2026	Fəqan Qarayev Zaur Almazov Məhluqə Hüseynova	
8.	Dəvət olunan şəxslərin siyahısının hazırlanması	Mart 2026	Səbuhi Gülməmmədov Fəqan Qarayev Nigar İsmayılova	
9.	Auditorlar Palatası əməkdaşların, üzvlərinin və auditin inkişafına xüsusi töhfələr vermiş şəxslərin əməyinin fərqləndirilməsi	Mart 2026	Rəhbərlik	



AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI

AZ1072, Bakı, S.Y.Bakuvi küç. 35, Tel.: 498-28-55 Faks: 498-28-55 Elektron poçt: audit-azerbaijan@audit.gov.az

27 oktyabr 2025-ci il 10-1/2-634/2025

Azərbaycan Respublikasının Prezidenti
Zati-alileri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident,

Zati-alilerinizin rəhbərliyi altında Azərbaycan Respublikasında iqtisadi islahatların uğurla həyata keçirilməsində, ölkədə azad sahibkarlıq fəaliyyətinin formalaşmasında və inkişafında mühüm rol oynayan, maliyyə nəzarətinin mühüm infrastrukturu olan auditor xidmətinin təşkili və tənzimlənməsi Ulu Öndərimiz Heydər Əliyev tərəfindən 1994-cü il 16 sentyabr tarixində imzalanmış "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

Həmin qanuna əsasən, ölkəmizdə auditor xidmətinin dövlət tənzimlənməsini təşkil etmək, auditor xidmətinin inkişafına və təkmilləşdirilməsinə yönəlmiş müvafiq normativ aktların layihələrini, tədbirlər sistemini hazırlamaq, dövlətin, təsərrüfat subyektlərinin və auditorların mənafelərini müdafiə etmək, öz fəaliyyətində qanunvericilik aktlarından və normativ hüquqi aktlardan irəli gələn tələblərə auditorlar tərəfindən riayət edilməsinə nəzarət etmək məqsədilə yaradılmış Azərbaycan Respublikası Auditorlar Palatasının 2026-cı ildə fəaliyyətə başlamasının 30 ili tamam olur.

Zati-alilerinizin proqram xarakterli göstərişlərini rəhbər tutaraq, audit sahəsində mütərəqqi dünya təcrübəsinin öyrənilməsi və ölkəmizdə tətbiqi istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi nəticəsində Auditorlar Palatası 50-yə yaxın ölkənin audit və mühasibatlıq təşkilatları ilə əməkdaşlıq sazişləri, niyyət protokolları və memorandumlar imzalamış və bir sıra beynəlxalq təşkilatlara, o cümlədən Beynəlxalq Mühasiblər Federasiyası (IFAC) və Avropanın Mühasiblər və Auditorlar Federasiyası (EFAA) kimi nüfuzlu beynəlxalq audit və mühasibatlıq qurumlarına tam hüquqlu üzv qəbul olunmuşdur.

Zati-alileri!

"Auditor xidməti haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsinin 10-cu ildönümünə həsr olunmuş "Keçid iqtisadiyyatı ölkələrində auditin inkişaf problemləri" beynəlxalq elmi-praktik konfransının iştirakçılarına 2004-cü il 14 sentyabr tarixində,

Elektron Sened Dövriyyesi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

Qeyd: <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə yanaşı adının əl imzasına bərabər tutulur.

Sənədin elektron yüklənmə ünvanı:
https://verify2.esd.tesan.gov.az/?folderglvU8DacpDN5OTeXd9OpA%2FPwOJtqOwMGOQe55HKWvNgTVs%3D

CamScanner ilə skan edilib

Nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi məqsədilə, yubiley münasibətilə xarici tərəfdaşların iştirakı ilə beynəlxalq elmi-praktik konfransın və yubiley tədbirlərinin keçirilməsinə razılıq verməsi və bu tədbirlərin həyata keçirilməsinə dair Auditorlar Palatasına dəstək göstərilməsi üçün 2025-ci il 27 oktyabr tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə 10-1/2-634/2025 nömrəli məktub göndərilmişdir.

2025-ci il 10 dekabr tarixində yubiley ilə əlaqədar müvafiq dövlət qurumlarına, Palatanın üzv olduğu beynəlxalq və yerli peşəkar qurumlara və əməkdaşlıq etdiyi xarici ölkələrin audit və mühasibatlıq qurumlarına yubileylə əlaqədar məlumat xarakterli məktubların, 2026-cı il 6-30 mart tarixlərində isə dəvət məktublarının hazırlanması və göndərilməsi təmin edilmişdir.



AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI

AZ1072, Bakı, S.Y.Bakuvi küç. 35, Tel.: 498-28-55 Faks: 498-28-55 Elektron poçt: audit-azerbaijan@audit.gov.az

6 mart 2026-cı il **10-1/2-159/2026**

Azərbaycan Respublikasının
maliyyə naziri
cənab Sahil Babayevə

Hörmətli Sahil müəllim,

Azərbaycan Respublikası Auditorlar Palatasının 30 illik yubileyi münasibətilə 2026-cı il 16 sentyabr tarixində "Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol" mövzusunda beynəlxalq elmi-praktik konfransın keçirilməsi nəzərdə tutulmuşdur.

Konfrans çərçivəsində auditor peşəsinin son otuz ildə keçdiyi institusional və metodoloji inkişaf mərhələləri, auditor fəaliyyətinin normativ-hüquqi bazasının formalaşması və təkmilləşdirilməsi, peşəkar özünüidarəetmə institutunun inkişafı, keyfiyyətə nəzarət mexanizmlərinin gücləndirilməsi, beynəlxalq audit standartlarının tətbiqi, eyni zamanda, rəqəmsal transformasiya, süni intellektin audit prosesinə inteqrasiyası, auditin strateji tərəfdaşlıq və dəyəryaratma komponentlərini özündə birləşdirən müasir modelə keçidi, habelə etik prinsiplərin və ictimai maraqların qorunması və peşəyə etimadın möhkəmləndirilməsi kimi aktual mövzuların müzakirəsi nəzərdə tutulur.

Sizi böyük məmnuniyyətlə konfransda iştirak etməyə və məruzə ilə çıxış etməyə dəvət edirik.

Tədbir "Fairmont Baku" otelinin (Ünvan: Bakı şəh., Mehdi Hüseyn küç. 1A) "Üzeyir Hacıbəyov" zalında saat 10:00-da baş tutacaqdır.

Xahiş olunur iştirakınızla bağlı münasibətinizi və məruzənizin mövzusunu cari ilin 1 may tarixinədək bizə bildirəsiniz (Əlaqələndirici şəxs: Sədrin müşaviri – Fəqan Qarayev; e-mail: audit-azerbaijan@audit.gov.az; mob: 055 7277477).

Dərin hörmətlə,
Azərbaycan Respublikası
Auditorlar Palatasının sədri **Vahid Novruzov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
Hazırlayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

Qeyd: «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imzanın kağız daşıyıcıdakı imzanın bədii və ya əl imzasından fərqləri yoxdur.

Sənədin elektron yüklənmə ünvanı:
https://ver.fy2.ced.sasa.gov.az/info/dialog/%2BIlxR1TdSCDoBA5vYkIaEDBzuWh0ULAyahULACaIoc%3D

CHAMBER OF AUDİTORS OF THE REPUBLİC OF AZERBAİJAN

35 Yahya Bakuvi St, Baku Phone: 498-28-55 Fax: 498-28-55 E-mail: audit-azerbaijan@audit.gov.az

August 05, 2026 **10-1/2-457/2026**

To the President of the Union of Accountants
and Auditors of the Kyrgyz Republic
Mr. Erik Tokbaevich Taranchiev

Dear Mr. Taranchiev,

On the occasion of the 30th anniversary of the Chamber of Auditors of the Republic of Azerbaijan, we have the honor to invite you to participate and deliver a speech in the international scientific-practical conference on "Evolution of Audit: From Compliance to Strategic Partnership and Trust" that will be held on 16 September 2026 in Baku.

We kindly ask you to confirm your participation in the above mentioned events, as well as to provide the title of your presentation for inclusion in the conference agenda by 25 August 2026.

In order to ensure the timely reservation of accommodation at the hotel where the conference will be held, we kindly ask you to inform us about your arrival and departure dates at your earliest convenience.

Contact person: Adviser to the Chairman – Mr. Fagan Garayev; e-mail: audit-azerbaijan@audit.gov.az; faganqarayev@yahoo.com; mobile: +994 55 727 74 77.

Following confirmation of your participation in the events, you will be provided with detailed information regarding the agenda and organization of the events.


Yours sincerely,
Chairman of the Chamber of Auditors
of the Republic of Azerbaijan **Vahid Novruzov**

Electronic Document Management System
Chamber of Auditors of the Republic of Azerbaijan
Approved by: Vahid Novruzov / Management / Chairman

Note: According to Article 3 of the Law of the Republic of Azerbaijan
"On digital signature and electronic document" an electronic signature has the same legal force as a manual signature.
Electronic signature is equal to the signature of the person, certified by the seal on the paper carrier.

Electronic document download link:
https://ver.fy2.sasa.gov.az/info/dialog/%2FUbY75eln5JjCw2Td4Sanb5T8qOLUhrDmW8y7XEZUK3D

Yubiley ilə əlaqədar Tədbirlər Planında nəzərdə tutulmuş təşkilati tədbirlərdən biri də sənədli filmin hazırlanması olmuşdur və bu məqsədlə dövlət orqanlarının, Auditorlar Palatasının üzv olduğu beynəlxalq peşəkar və əməkdaşlıq etdiyi xarici ölkələrin audit və mühasibatlıq qurumlarının rəhbər şəxsləri və nümayəndələrindən videotəbriklər də daxil olmaqla Auditorlar Palatasının keçdiyi dövr üzrə “Auditorlar Palatası - 30 il” adlı sənədli film hazırlanmışdır.





Tədbirlər Planına uyğun olaraq 500 ədəd “Auditorlar Palatası -30 il” və “Auditorlar Palatasına üzvlük” döş nişanları hazırlanmışdır.






Eyni zamanda Tədbirlər Planına uyğun olaraq konfransa sponsorluq etmələrinə dair auditor təşkilatları və sərbəst auditorlara 2026-cı il 23 fevral tarixində məktublar və seçim etmələri üçün platin, qızıl, gümüş, bürünc və digər sponsorluq paketləri göndərilmiş və nəticə olaraq 125 sərbəst auditor və auditor təşkilatları müxtəlif sponsorluq paketləri üzrə konfransa maddi dəstək göstərmişdir.

SPONSORLUQ PAKETLƏRİ

Sponsorluq paketlərinin faydaları	Platin Sponsorlar	Qızıl Sponsorlar	Gümüş Sponsorlar	Bürünc Sponsorlar	Digər sponsorlar
Məbləğ	6000-dən yuxarı (AZN)	4000-5000 (AZN)	2500-3000 (AZN)	1000-2000 (AZN)	300-800 (AZN)
Tədbirin foyesində sponsorun loqosu (ödənişə uyğun nisbətdə)	✓	✓	–	–	–
Palatanın web-saytında sponsorların loqosu (ödənişə uyğun nisbətdə)	✓	✓	✓	✓	✓
Tədbirin materiallarında sponsorun loqosu (ödənişə uyğun nisbətdə)	✓	✓	✓	✓	✓
Tədbirdə əlavə nümayəndələrin pulsuz iştirakı	3	2	1	–	–
Auditorlar Palatası tərəfindən nəşr etdirilmiş vəsaitlərin pulsuz verilməsi	3	2	1	1	1
Auditorlar Palatasının web-saytında pulsuz elanların yerləşdirilməsi	✓	✓	–	–	–
Tədbirdə press-reliz və sosial media tanıtımı	✓	–	–	–	–
Tədbirin foyesində reklamın göstərilməsi	✓	✓	–	–	–
Tədbirdən əvvəl loqonun ekranda nümayişi (ödənişə uyğun nisbətdə)	✓	✓	✓	✓	✓
Tədbirə həsr olunmuş “Qala” şam yeməyində nümayəndələrinin pulsuz iştirakı	2	1	1	–	–



Azərbaycan Respublikasının AUDİTORLAR PALATASI

CHAMBER OF AUDITORS of the Republic of Azerbaijan

AZ1072, Bakı, R.Y.Bakıxanov küç. 35, Tel./Faks: 498-28-55, E-mail: audit-azerbaijan@audit.gov.az AZ1072, 35, R.Y.Bakıxanov Str., Ph./Fax: 498-28-55

№ 10-1/2-144/2026 «23» fevral 2026-cı il/year

"SFAİ AZERBAİJAN" MMC-nin
Direktoru xanım Sabir Svetlana Şahidovnaya

Hörmətli Svetlana xanım,

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Ulu Öndər Heydər Əliyev tərəfindən 1994-cü il 16 sentyabr tarixində imzalanmış "Auditor xidməti haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq, 1996-cı il 05 aprel tarixindən fəaliyyətə başlamış Azərbaycan Respublikası Auditorlar Palatasının 2026-cı il 05 aprel tarixində 30 illi tamam olur.

Bu məqsədlə Auditorlar Palatası tərəfindən cari ilin aprel ayından Palatanın 30 illik yubileyinə həsr edilmiş silsilə tədbirlər, sentyabr ayında isə beynəlxalq elmi-praktik konfransın keçirilməsi nəzərdə tutulmuşdur.

Tədbirlərimizdə yerli qurumların, habelə üzv olduğumuz beynəlxalq təşkilatların, o cümlədən IFAC və EFAA-nın, bir sıra xarici ölkələrin audit və mühasibatlıq qurumlarının nümayəndələrinin iştirakı gözlənilir.

Tədbirlərimizin təşkilinə yardım göstərənlərin sırasında Sizin təşkilatı da görmək bizim üçün çox xoş olardı.

Məlumat üçün bildirirk ki, tədbirlərin materiallarında və tədbir zamanı sponsorluq edən təşkilatların loqotipləri yerləşdiriləcəkdir.

Əlaqələndirici şəxs: Tədbirlərin koordinatoru - Birgül Məmmədzadədir.(Email: birgulmemmedzade1992@gmail.com); Tel:, (012) 565-65-45; (055) 219-83-82 mob.

Nəzərə almağınızı xahiş edirik.

Qoşma: Sponsorluq paketləri - 2 vərəq

Hörmətlə,
Azərbaycan Respublikası
Auditorlar Palatasının
icraçı direktoru **Səbuhi Gülməmmədov**


Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlər sırasında 2026-cı il 3 sentyabr tarixində yubiley ilə əlaqədar “Fərdi jurnalist yazı müsabiqəsi”nin və “Ən yaxşı auditor assistenti və mütəxəssisi” və “Ən yaxşı gənc auditor” müsabiqələrinin keçirilməsi də olmuşdur.







- Tədbirlər Planına uyğun olaraq 20 yerli qurumlardan, 18 Auditorlar Palatasının üzv olduğu beynəlxalq peşəkar qurumlardan və əməkdaşlıq etdiyi xarici ölkələrin audit və mühasibatlıq qurumınlardan göndərilmiş təbriklər də əlavə edilməklə, Auditorlar Palatasının sədri, professor Vahid Novruzovun rəhbərliyi altında 6 bölmədən ibarət olan “Auditorlar Palatası-30 il” kitabı nəşr olunmuşdur.



Yubiley münasibətilə həyata keçirilən əhəmiyyətli tədbirlərdən biri də 2026-cı il 15 sentyabr tarixində Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzovun rəhbərliyi altında Auditorlar Palatasının 30 illiyinə həsr edilmiş «İqtisadiyyat» qəzetinin yubiley nömrəsi işıq üzü görmüşdür. Həmin nömrədə Auditorlar Palatasının 30 ildə keçdiyi dövrə nəzər salınmış, müxtəlif başlıqlı faktlar yer almış və "30 ilin etibarı: Auditorlar Palatasının inkişaf yolu və Azərbaycanda müstəqil audit institutunun formalaşması" başlıqlı məqalə də əks etdirilmişdir.



İQTİSADİYYAT

15-30 sentyabr 2026-cı il 3

30 İLİN ETİBARI: AUDİTORLAR PALATASININ İNKİŞAF YOLU VƏ AZƏRBAYCANDA MÜSTƏQİL AUDİT İNSTİTUTUNUN FORMALAŞMASI

Etimad uzerinde qurulan 30 il

Direktorun inkişaf sahəsində elə təsisatlar var ki, onların rolu statistik göstəricilərlə deyil, iqtisadi səbiliyə və ictimai əlimdə verdiyi töhfələrlə ölçülür. Azərbaycan Respublikasının Auditorlar Palatası da məhz belə qurumlardandır.

Ölkədə sərbəst bazar iqtisadiyyatının formalaşdırılması Ümummilli Lider Heydər Əliyevin dövlət quruculuğu siyasətinin əsas istiqamətlərindən idi. Müstəqilliyin ilk illərində beynəlxalq meyarlara uyğun audit sisteminin yaradılması açan mühüm hüquqi addımlar atıldı.

1994-cü il 16 sentyabr tarixində "Auditor fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunsa. 1996-cı il 05 aprel tarixində isə Azərbaycan Respublikasının Auditorlar Palatası fəaliyyətə başladı. Palatanın ilk üzvləri seçildi və kollektivi formalaşdı.

Son 30 ildə Azərbaycan auditinin keçdiyi yol Heydər Əliyevin irəli sürdüyü müasir müstəqil dövlətçilik ideyalarının inkişafına yönəlmiş siyasətin mühüm nəticəsidir. Bu dövr ərzində audit institutu mükəmməldi, maliyyə şəffaflığı təmin etmiş, iqtisadi münasibətlərdə etimad mühiti formalaşdı.

Müstəqilliyin ilk illəri ölkə üçün dərin transformasiya dövrü idi. Planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid, özəl sektorun yaranması, xarici investisiyaların cəlb olunması yeni maliyyə institutlarının yaradılmasını zəruri edirdi. Belə şəraitdə maliyyə məlumatlarının dürüstlüyünü və investor etimadını təmin edəcək müstəqil audit institutunun yaradılması strateji əhəmiyyət daşıyırdı.

Məhz bu tarixi zərurətin nəticəsi olaraq Auditorlar Palatası yaradıldı və qısa müddətdə ölkədə peşəkar audit fəaliyyətinin təşkilati əsaslarını qoydu. Sonrakı illər göstərdi ki, bu qərar təkcə dövrün tələbi deyildi. Bu, Azərbaycanın gələcək iqtisadi inkişaf modelinin mühüm sütunlarından birinin qurulması idi.

Otuz il əvvəl əsas qoyulan bu peşəkar irsiniz bu gün təkcə auditorların fəaliyyətini əlaqələndirməyimiz deyil. O, ölkədə maliyyə şəffaflığının, korporativ məsuliyyətin, hesabatlılığın və peşə etikası prinsiplərinin əsas təminatçısına çevrilib.

Dövlət dəstəyi – müstəqil audit sisteminin davamlı inkişafının əsas təminatı

Azərbaycan Respublikasında müstəqil audit institutunun inkişaf dövlətin bu sahəyə göstərdiyi ardıcıl diqqət və qayğı ilə sıx bağlıdır. Ulu Öndər Heydər Əliyevin müasyan müstəqil iqtisadi inkişaf strategiyasının ağırlıq davam etdirilməsi nəticəsində ölkədə bazar iqtisadiyyatı institutlarının möhkəmləndirilməsi, maliyyə intizamının gücləndirilməsi, şəffaflığın və hesabatlılığın artırılması istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlər audit fəaliyyətinin daha yeni inkişaf mərhələsinə qədəm qoymasını təmin etmişdir.

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev tərəfindən müstəqil audit institutuna göstərilən daimi diqqət və yüksək etimad bu sahədə qanunlarının müəyyənləşdirilməsi ilə müşahidə olunmaqdadır. Dövlət başçısının Auditorlar Palatasının yubileyləri və beynəlxalq səviyyəli elmi-praktik konfranslar, müzakirələrlə təmsilçiliyi, təmiz mühitlərin, əlaqə də audit sahəsində müəyyənə yönəlmiş təşəbbüslərə göstərdiyi dəstək milli audit sisteminin inkişafına xarici, yüksək dövlət qiymətinin bariz ifadəsidir.

Bu diqqətin ən parlaq nümunələrindən biri Azərbaycan Respublikası Prezidentinin 15 sentyabr 2011-ci il, 6 aprel 2016-cı il və 15 aprel 2021-ci il tarixli sərəncamları ilə auditor sahəsinin inkişafındakı əsasnamə fəaliyyətlərinə göstərdiyi dəstəkdir. Auditorlar Palatasının fəaliyyətinin sərəncamlarla müəyyənləşdirilməsi, həmçinin Auditorlar Palatasının əlaqələrinin və üzvlərinin 52 nəfərinin "Tərəqqi" medalı ilə təltif olunmasıdır. Bu ali dövlət mükafatları auditor peşəsinin cəmiyyət və dövlət üçün əhəmiyyətinin, həmçinin Auditorlar Palatasının ölkənin sosial-iqtisadi inkişafına verdiyi töhfələrin yüksək qiymətləndirilməsini bir daha əlamətdar edilir.

Bununla yanaşı, Auditorlar Palatasının fəaliyyət tarixinin müxtəlif mərhələlərində keçirilmiş beynəlxalq elmi-praktik konfranslar münasibətilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən ünvanlanmış müraciətlər müstəqil auditin inkişaf konsepsiyasını müəyyən edən mühüm proqram sənədləri kimi xüsusi əhəmiyyət daşıyır. Belə ki, "Auditor xidməti haqqında" Azərbaycan Respublikası Qanununun 10 illiyinə həsr olunmuş "Keçid iqtisadiyyatı: ölkələrdə auditin inkişaf problemləri" mövzusunda beynəlxalq elmi-praktik konfransın iştirakçılarına (14 sentyabr 2004-cü il), Auditorlar Palatasının fəaliyyətə başlamasının 10 illiyi münasibətilə (4 aprel 2006-cı il), Palatanın 20 illik yubileyi münasibətilə (4 aprel 2016-cı il), "Azərbaycan iqtisadiyyatının Strateji Yol Xəritəsi: həmkarlıq və şəffaflıq problemləri" mövzusunda beynəlxalq konfransın iştirakçılarına (22 sentyabr 2017-ci il), Auditorlar Palatasının 25 illik yubileyi münasibətilə keçirilmiş "Şəffaflıq və audit yeni dövrün çağırışları, problemləri, perspektivləri" mövzusunda beynəlxalq elmi-praktik konfransın iştirakçılarına (15 sentyabr 2021-ci il), eləcə də Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Dayanıqlı inkişaf. Həmkarlıq, şəffaflıq" mövzusunda beynəlxalq elmi-praktik konfransın iştirakçılarına (15 sentyabr 2023-cü il) ünvanlanmış təbrik məktublarında audit fəaliyyətinin müasir inkişaf prinsipləri, şəffaflığın gücləndirilməsi, hesabatlılıq məsuliyyətinin təkmilləşdirilməsi, beynəlxalq standartların tətbiqinin genişləndirilməsi və auditor peşəsinin nüfuzunun yüksəlməsi ilə bağlı mühüm vəzifələr müəyyən edilmişdir.

Həmin proqram sənədləri müddəalar Auditorlar Palatasının fəaliyyətində strateji inkişaf istiqamətləri kimi qəbul edilmiş, milli audit sisteminin beynəlxalq tələblərə uyğun təkmilləşdirilməsi, peşəkar peşə-ləkələrin gücləndirilməsi, rəqəmsal transformasiya prosseslərinin sürətləndirilməsi və beynəlxalq əməkdaşlığın genişləndirilməsi istiqamətində həyata keçirilən islahatların idarəetmə əsasını təşkil etmişdir.

Dövlətin ardıcıl qayğı irsidəsi, Prezidentin audit institutunun göstərdiyi etimad və Palatanın peşəkar fəaliyyəti birlikdə Azərbaycanda müasir, beynəlxalq standartlara əsaslanan və etibarlı audit sisteminin formalaşmasına zəmin yaratdı.

Auditorlar Palatasının 20 illik yubileyi münasibətilə fərqli bir çəkili səciyyələnir. Fərqli qeyd etmək istəyirik ki, bu yubiley Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Ordumuzun şücaəti və qələbələri qrupunda Böyük Zəfərin uğurlarının reallaşdığı və xarakterik olduğu bir dövrə təsadüf edir. Yeni dövr Böyük Qayıdışın və genişmiqyaslı quruculuq işlərinin yüksək olduğu, ölkə ərazisinin qısa çalışmın regionda ölçmək zülfü və əmələgəlişin mühəndislərinə təhfə verdiyi bir dövrdür.

Audit – nəqanlətin deyil, etimadın təminatçısıdır

Tərəqqi illər audit müəyyənləşdirilməsi ilə yanaşı maliyyə hesabatlarının yoxlanılmasını kimi başa düşülürdü. Lakin qlobal iqtisadi inkişaf bu peşənin məhiyyətini dəyişdi.

Bu gün audit strateji qərarlar üçün əhəmiyyətli məlumatlar verən, risklərin müəyyən edilməsinə, daxili nəzarət sistemlərinin və investisiya mühitinin dəyərləndirilməsinə yönəlmiş mühüm idarəetmə alətidir. Bu mənada auditor artıq sadəcə sənəd yoxlayan mütəxəssis deyil. O, iqtisadi təhlükəsizliyin təmin olunmasına, biznes mühitində şəffaflığın möhkəmlənməsinə, dövlət və özəl sektor arasında etibarlı münasibətlərin qurulmasına xidmət edən peşəkar tərəfdaşdır.

Müasir iqtisadiyyat təkcə ildən-ilə və təsnə göstəricilərlə deyil, idarəetmənin keyfiyyəti, şəffaflıq və etimad əlamətlə ölçülür. Bu baxımdan audit iqtisadi inkişafın təminatçısıdır, lakin ən mühüm dəyişənə çevrilib.

Müstəqil Azərbaycanın iqtisadi inkişaf strategiyasında auditin yeri

Son otuz il ərzində Azərbaycan iqtisadiyyatı yeni inkişaf modelinə keçid etdi. İri infrastruktur layihələri, qeyri-neft sektorunun inkişafı, investisiya mühitinin yaxşılaşdırılması ilə yanaşı, inzibatçılıq idarəetmə sistemində müasirləşdirildi.

Şəffaflığın artırılması, sahibkarlığın dəstəklənməsi, dövlət maliyyəsinin səmərəli idarə olunması və korrupsiya risklərinin azaldılması audit institutunun qarşısına yeni vəzifələr qoydu.

Bu gün auditorların fəaliyyəti yalnız maliyyə hesabatları ilə məhdudlaşmır. Onlar biznes proseslərinin səmərəliliyini qiymətləndirir, risklərə idarə edir, korporativ idarəetmə prinsiplərinin tətbiq edir və davamlı inkişaf strategiyalarının həyata keçirilməsinə iştirak edir.

Beləliklə, audit artıq iqtisadiyyatın müşahidəçisi deyil, onun dayanıqlı inkişafına töhfə verən fəal iştirakçısıdır.

Otuz ilin əsas nailiyyəti – formalaşmış peşəkar institut

Keçmiş illərlə müqayisə yalnız onun fəaliyyət müddəti ilə müəyyən olunmur. Əsas qazanılmış həmin illər ərzində onunyolu hansı dəyişiklərə uğradıb-sınadılır.

Fəaliyyətə başlamasından bəri 2011-ci ilədək Auditorlar Palatasının intensiv fəaliyyəti sayəsində Azərbaycanda milli audit sistemi beşqat artmış, auditor xidmətlərinin həcmi, əhatə dairəsi əhəmiyyətli dərəcədə genişlənmiş, şəffaflığın artırılmasında, korrupsiyaya qarşı mübarizədə, "Xalqa iqtisadiyyat"ının azaldılmasında, maliyyə hesabatlılığının təkmilləşdirilməsində, bütövlükdə ölkə iqtisadiyyatının inkişafında auditin rolu qeyri-artmış və Palatanın beynəlxalq əlaqələri genişlənmişdir. Bütün bunlar şübhəsiz ki, müharibə Prezidentimizin müasyil auditor sahəsinin qarşısında qoyduğu beynəlxalq audit standartlarının və prinsiplərinin 30-cu ildə tətbiqi kimi mühüm vəzifələrin həyata keçirilməsində mümkün olmuşdur. Hələ neçə illər bəri Prezident İlham Əliyev sadiq hələ dəyərləndirməyib: "Azərbaycanda audit xidməti iqtisadiyyatın və regionların inkişafı sahəsində genişləyən proqramların həyata keçirilməsi, ölkəmiz qeyri-neft sektorunu investisiya axınının gücləndirilməsi, sahibkarlığın inkişafı, ölkənin, məşğulluğunun yüksəldilməsi, yoxsulluğun azaldılması və xalqın rifah halının yaxşılaşdırılması ilə bağlı iqtisadi siyasətin əsaslarında mühüm rol oynayır. Eədəki mərhələdə maliyyə intizamına ciddi əməl olunması, pul vəsaitlərindən səmərəli istifadə edilməsi xüsusi əhəmiyyət kəsb edir və bu baxımdan da audit həmin vəzifələrin uğurla yerinə yetirilməsində ön sıralarda olmalıdır".

(davamı 4-cü səhifədə)

CamScanner ilə skan edilib

2026-cı il 16 sentyabr tarixində Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illik yubiley tədbiri və “Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol” mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilmişdir.

Konfransda 200-ə yaxın nümayəndələr, o cümlədən yerli qurumlarla bərabər, Pakistandan 4 nəfər, Türkiyədən 9 nəfər, İsraildən 2 nəfər, Qazaxıstandan 4 nəfər, Özbəkistandan 6 nəfər, Litvadan 2 nəfər, Gürcüstandan 11 nəfər, Rusiyadan 1 nəfər, Latviyadan 3 nəfər olmaqla 42 nəfərdən ibarət nümayəndə heyəti, eyni zamanda İsrailin və Latviyanın Azərbaycandakı Səfirləri və nümayəndələri də iştirak edib.





Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin Fəxri Xiyabandakı məzarını ziyarət edib, Ulu Öndərin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş Vətən övladlarının əziz xatirəsini ehtiramla yad ediblər. Daha sonra yubiley tədbirinin rəsmi açılışı olub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib və Auditorlar Palatasının 30 illik fəaliyyətinə həsr olunmuş sənədli film nümayiş etdirilib.







Yubiley tədbirini açılış nitqi ilə Auditorlar Palatasının sədri, professor Vahid Novruzov açaraq ilk öncə qonaqları salamlayıb və Azərbaycan Respublikası Prezidentinin Administrasiyası tərəfindən hörmətli sədrimizə etimad göstərilərək Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyevin Auditorlar Palatasının 30 illik yubileyi münasibətilə “Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol” mövzusunda beynəlxalq elmi-praktik konfransın iştirakçılarına ünvanladığı təbrik məktubunu tədbir iştirakçılarına çatdırıb və qeyd edib ki, bu təbrik məktubu Azərbaycan auditinin inkişafına dövlət rəhbərliyi səviyyəsində göstərilən diqqət və dəstəyin növbəti təzahürüdür. Möhtərəm Prezidentimizin konfrans iştirakçılarına olan müraciəti xarici qonaqlar tərəfindən də böyük ruh yüksəkliyi və minnətdarlıqla qarşılanmışdır.



Azərbaycan Prezidentinin Rəsmi internet səhifəsi

“Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol” mövzusunda beynəlxalq elmi-praktik konfransın iştirakçılarına

16 sentyabr 2026, 11:28 Text size

Hörmətli konfrans iştirakçıları!

Sizi Bakıda Azərbaycan Respublikası Auditorlar Palatasının 30 illik yubileyinə həsr edilmiş “Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol” mövzusunda beynəlxalq elmi-praktik konfransda səmimi-qəlbdən salamlayıram.

Müstəqil Azərbaycan dövlətinin tərəqqisi və iqtisadi qüdrətinin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən genişmiqyaslı islahatlar çərçivəsində müasir audit institutunun formalaşdırılması və inkişafı xüsusi əhəmiyyət kəsb etmişdir. “Auditor xidməti haqqında” Azərbaycan Respublikası Qanununun qəbul edilməsi Ümummilli Lider Heydər Əliyevin demokratik idarəetmə prinsiplərinə və bazar iqtisadiyyatının institusional əsaslarının formalaşdırılmasına verdiyi yüksək önəmin, ölkədə maliyyə intizamının və şəffaflığın, hesabatlılığın təmin edilməsinə xidmət edən uzaqgörən və məqsədyönlü dövlət siyasətinin mühüm təzahürü idi. Həmin Qanuna uyğun olaraq yaradılmış Azərbaycan Respublikasının Auditorlar Palatası ötən dövr ərzində ölkədə müstəqil audit sisteminin institusional əsaslarının möhkəmləndirilməsi, peşəkar auditor kadrlarının hazırlanması, şəffaflıq və hesabatlılıq mühitinin inkişaf etdirilməsi, habelə beynəlxalq qabaqcıl təcrübəyə uyğun müasir audit modelinin formalaşdırılması istiqamətində olduqca əhəmiyyətli və zəruri işlər görmüşdür. Nəticə etibarilə, auditor xidmətlərinin əhatə dairəsi xeyli nəzərə çarpacaq dərəcədə genişlənmiş, maliyyə hesabatlarının etibarlılığının təmin edilməsində, şəffaflığın artırılmasında, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsində və kölgə iqtisadiyyatının azaldılmasında audit institutunun rolu daha da artmışdır.

Auditorlar Palatasının yubileyi münasibətilə təşkil olunmuş beynəlxalq konfransın ölkəmizdə auditor peşəsinin son otuz ildə keçdiyi inkişaf yolunun elmi və praktik müstəvidə təhlili, auditor fəaliyyətinin normativ hüquqi bazasının təkmilləşdirilməsi, peşəkar özünüidarəetmə institutunun möhkəmləndirilməsi, keyfiyyətə nəzarət mexanizmlərinin inkişaf etdirilməsi və beynəlxalq audit standartlarının tətbiqi ilə bağlı mühüm məsələlərin müzakirəsi baxımından əhəmiyyəti xüsusi qeyd olunmalıdır.

Eyni zamanda, konfrans çərçivəsində audit fəaliyyətinin rəqəmsal transformasiya şəraitində yeni inkişaf istiqamətlərinin, böyük verilənlərin analitikası və süni intellekt texnologiyalarının audit prosesinə integrasiyasının, auditin ənənəvi uyğunluq funksiyasından kənara çıxaraq strateji tərəfdaş və dəyər yaradan institut kimi rolunun genişləndirilməsinin, habelə peşə etikası və ictimai etimad prinsiplərinin möhkəmləndirilməsinin müzakirə olunması müasir dövrün tələbləri baxımından xüsusi əhəmiyyət kəsb edir.

Qlobal iqtisadiyyatın sürətlə rəqəmsallaşdığı və texnoloji transformasiyanın geniş vüsət aldığı müasir şəraitdə audit fəaliyyətinin yeni keyfiyyət mərhələsinə yüksəldilməsi hər bir ölkə qarşısında duran mühüm vəzifələrdən biridir. Bu xüsusda audit fəaliyyətinin rəqəmsal əsaslarda təşkili, süni intellekt və müasir məlumat analitikası alətlərinin tətbiqinin genişləndirilməsi, audit proseslərində şəffaflığın və

CamScanner ilə skan edilib

Auditorlar Palatasının yubileyi münasibətilə auditor fəaliyyətinin inkişafında xidmətlərinə görə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2026-ci il 16 sentyabr tarixli “Azərbaycan Respublikası Auditorlar Palatasının üzvlərinin “Tərəqqi” medalı ilə təltif edilməsi haqqında” Sərəncamı ilə Palatanın 15 nəfər əməkdaşı və üzvü “Tərəqqi” medalı ilə təltif edilmişdir.



Azərbaycan Prezidentinin Rəsmi internet səhifəsi

Azərbaycan Respublikası Auditorlar Palatası üzvlərinin və əməkdaşlarının “Tərəqqi” medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

16 sentyabr 2026, 11:29 Text size + −

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Auditorlar Palatasının 30 illiyi münasibətilə qərara alıram:

Auditor fəaliyyətinin inkişafında xidmətlərinə görə Azərbaycan Respublikası Auditorlar Palatasının aşağıdakı üzvləri və əməkdaşları “Tərəqqi” medalı ilə təltif edilsinlər:

Ağayev Akif Ağa oğlu

Axundov Vaqif Xəlil oğlu

Bayramova Lamiyə Qəşəm qızı

Bənnayev Elxan Bəhmən oğlu

Cavadov Vasif Tofiq oğlu

Cəbiyev Hüseyn Kommuna oğlu

Eyvazova Mətanət Gümüş qızı

Əliyev Azər Hüseyn oğlu

Fətiyev Üzeyir Cəmil oğlu

Hacıəzizov İlham İsfəndiyar oğlu

Həsənova Adilə Teymur qızı

Qarayev Fəqan Şakir oğlu

Qurbanlı Ziya Tofiq oğlu

Məmmədov Şahbaz Müseyib oğlu

Süleymanova Elzadə Süleyman qızı.

İlham Əliyev

Tədbirdə Auditorlar Palatasının 30 illik fəaliyyəti münasibətilə 22 nümayəndə tərəfindən beynəlxalq və yerli səviyyədə təbriklər səsləndirilib.











Yubiley tədbirinin mühüm nəticələrindən biri Türk Dövlətlərinin Mühasibat və Audit Peşə Tənzimləyici Qurumları Birliyinin yaradılmasına dair Sazişin imzalanması olub. Azərbaycan, Türkiyə, Qazaxıstan və Özbəkistanın müvafiq peşə tənzimləyici qurumları arasında imzalanmış Saziş türk dövlətləri məkanında mühasibat və audit peşəsinin inkişafı istiqamətində əməkdaşlığın yeni institusional mərhələyə keçidini nümayiş etdirib.





Tədbir çərçivəsində Azərbaycan Respublikası Auditorlar Palatası ilə Pakistanın İmtiyazlı Mühasiblər İnstitutu (ICAP) arasında yenilənmiş Əməkdaşlıq Memorandumu da imzalanıb.







Konfransda auditin institusional islahatlarda rolu, ictimai nəzarət mexanizmləri, süni intellekt və rəqəmsal transformasiya, maliyyə kəşfiyyatı, vergi inzibatçılığı, daxili nəzarət, audit keyfiyyətinə kənar nəzarət, peşəkar tənzimləmə, dayanıqlı audit və auditin strateji tərəfdaşlıq funksiyası kimi məsələlər üzrə beynəlxalq və milli təcrübə təqdim edilmiş və müzakirələr aparılmışdır.









Tədbirin yekununda konfrans iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə müraciət qəbul olunub.



Azərbaycan Respublikasının
AUDİTORLAR PALATASI

CHAMBER OF AUDITORS
of the Republic of Azerbaijan

AZ1072, Bakı, S.Y.Bakuvi küç. 35, Tel./Faks: 498-28-55, E-mail: audit-azerbaijan@audit.gov.az AZ1072, 35, S.Y.Bakuvi Str., Ph./Fax: 498-28-55

Azərbaycan Respublikasının Prezidenti
Zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident,

Biz – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış Azərbaycan Respublikası Auditorlar Palatasının 30 illik yubileyinə həsr edilmiş "Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol" mövzusunda beynəlxalq elmi-praktik konfransın Azərbaycan, Gürcüstan, İsrail, Qazaxıstan, Latviya, Litva, Moldova, Pakistan, Rusiya Federasiyası, Türkiyə və Özbəkistanı təmsil edən iştirakçıları olaraq, Sizin rəhbərliyinizlə həyata keçirilən ardıcıl və məqsədyönlü dövlət siyasəti nəticəsində Azərbaycanın dinamik sosial-iqtisadi tərəqqi yolunda mühüm nailiyyətlər qazandığını, beynəlxalq nüfuzunun davamlı şəkildə artırılmasını və müasir idarəetmə prinsiplərinə əsaslanan inkişaf modeli ilə regionda və daha geniş coğrafiyada örnək dövlət kimi tanındığını xüsusi ehtiram hissi ilə qeyd edirik və konfransın iştirakçılarına ünvanladığınız təbrik məktubuna görə Sizə dərin minnətdarlığımızı bildiririk. Konfrans iştirakçılarına göstərdiyiniz yüksək diqqət və etimadı bütövlükdə audit peşəsinə verilən böyük dəyərin mühüm ifadəsi kimi qiymətləndiririk.

Zati-alilərinizin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı sosial-iqtisadi islahatlar nəticəsində maliyyə hesabatlılığının etibarlılığı, hesabatvermə mədəniyyəti, şəffaflıq və audit institutunun cəmiyyət və dövlət üçün əhəmiyyəti daha da artmışdır. Böyük qürur hissi ilə qeyd edirik ki, müstəqil Azərbaycanın audit sistemi ölkə rəhbərliyinin dəstəyi ilə mühüm uğurlar qazanmışdır.

Konfrans çərçivəsində aparılan müzakirələr göstərdi ki, qlobal iqtisadiyyatın sürətlə rəqəmsallaşdığı, süni intellekt texnologiyalarının, böyük verilənlər analitikasının və rəqəmsal platformaların idarəetmənin ayrılmaz hissəsinə çevrildiyi müasir dövrdə audit institutu da müasir çağırışlara uyğun olaraq yeni keyfiyyət mərhələsində inkişafı mühüm bir zərurətə çevrilmişdir.

Bu baxımdan, Azərbaycanın rəqəmsal inkişaf və beynəlxalq rəqəmsal əməkdaşlıq sahəsində atdığı mühüm addımları xüsusi qeyd etmək istərdik. Ölkənizin 2026-cı il 1 sentyabr tarixində beynəlxalq hökumətlərarası Rəqəmsal Əməkdaşlıq Təşkilatına (DCO) üzvlüyü ilə bağlı atdığı addım Azərbaycanın qlobal rəqəmsal əməkdaşlıq məkanında faal iştirakının və rəqəmsal iqtisadiyyatın inkişafına verdiyi önəmin göstəricisi kimi qiymətləndirilir.

Rəqəmsal İnkişaf Şurasının yaradılması, milli texnoloji potensialın gücləndirilməsi, rəqəmsal suverenliyin möhkəmləndirilməsi və innovasiya əsaslı iqtisadi modelə keçidin sürətləndirilməsi istiqamətində görülən işlər ölkənizin müasir texnoloji çağırışlara çevik və sistemli şəkildə cavab verdiyini nümayiş etdirir.

Konfrans başa çatdıqdan sonra Auditorlar Palatası sədrinin 2026-cı il 18 sentyabr tarixli 10-1/3-3-34/2026 nömrəli “2026-cı il 16 sentyabr tarixində keçirilmiş Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illik yubileyinə həsr edilmiş tədbirin və “Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol” mövzusunda beynəlxalq elmi-praktik konfransın yekunları barədə” sərəncamı və müvafiq tədbirlərin həyata keçirilməsi üçün 19 bənddən ibarət Tədbirlər Planı təsdiq edilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI

SƏRƏNCAM

18 sentyabr 2026-cı il **10-1/3-3-34/2026**

2026-cı il 16 sentyabr tarixində keçirilmiş Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illik yubileyinə həsr edilmiş tədbirin və “Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol” mövzusunda beynəlxalq elmi-praktik konfransın yekunları barədə

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illik yubileyinə həsr edilmiş tədbirin və beynəlxalq elmi-praktik konfransın yekunları ilə əlaqədar, habelə 2026-cı il 16 sentyabr tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin konfrans iştirakçılarına ünvanladığı təbrik məktubundan irəli gələn vəzifələrin icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. 2026-cı il 16 sentyabr tarixində Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illik yubileyinə həsr edilmiş tədbirin və «Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol» mövzusunda beynəlxalq elmi-praktik konfransın yüksək səviyyədə keçirilməsi qeyd edilsin.
2. 2026-cı il 16 sentyabr tarixində Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illik yubileyinə həsr edilmiş tədbirin və «Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol» mövzusunda beynəlxalq elmi-praktik konfransın yekunları ilə əlaqədar işlərin icrasına dair Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).
3. Tədbirlərin yüksək səviyyədə keçirilməsinə maddi dəstək göstərilməsi məqsədilə sponsorluq edən Auditorlar Palatasının adları qeyd edilən aşağıdakı üzvlərinə təşəkkür elan edilsin:

Auditor təşkilatları:

“A Audit and Consulting” MMC-nin direktoru Rüfət Əliyev
“A PLUS AUDİT” məhdud MMC-nin direktoru Azər Əliyev
“ABAK-Az Crovve LTD” MMC-nin direktoru Zamin Hüseynov
“ABB AUDIT AND FINANCE” MMC-nin direktoru Balağa Bağırov

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

Qeyd: «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinə əsasən elektron imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imzası yerləşdirilməklə daşıyıcı üzərindəki məlumat təsdiq edilmiş elektron sənəd hesab olunur.

Azərbaycan Respublikasının Auditorlar Palatası sədrinin 2026-cı il 18 sentyabr tarixli _____ nömrəli sərəncamı ilə təsdiq edilmişdir

2026-cı ilin 16 sentyabr tarixində keçirilmiş Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illik yubileyinə həsr edilmiş tədbirin və «Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol» mövzusunda beynəlxalq elmi-praktik konfransın yekunlarına dair

TƏDBİRLƏR PLANI

	Tədbirin adı	İcra müddəti	Məsul şəxslər	Qeyd
1.	«Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol» mövzusunda beynəlxalq elmi-praktik konfransın iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə ünvanlanmış müraciətin göndərilməsi və Palatanın saytında yerləşdirilməsi	Üç gün müddətində	Rəhbərlik A.Bayramova	
2.	Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illik yubileyinə həsr edilmiş tədbirin və «Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol» mövzusunda beynəlxalq elmi-praktik konfransın yekunları barədə hesabatın Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına göndərilməsi	Üç gün müddətində	S.Gülməmmədov F.Qarayev	
3.	2026-cı il 16 sentyabr tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin «Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol» mövzusunda beynəlxalq elmi-praktik konfransın iştirakçılarına göndərdiyi təbrik məktubundan irəli gələn vəzifələrin icrasına dair Tədbirlər Planının layihəsinin hazırlanması	İki həftə müddətində	Q.Əhmədov Ə.Aslanov	
4.	Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illik yubileyi ilə əlaqədar əməkdaşların və üzvlərin fərqləndirilməsinə dair təkliflərin hazırlanması və rəhbərliyə təqdim edilməsi	1 ay müddətində	S.Gülməmmədov	
5.	Palatanın əməkdaşlarına və üzvlərinə Dövlət təltiflərinin, təşəkkürnamələrin və digər təltiflərin müvafiq şəxslərin iştirakı ilə təqdim edilməsi	2026-cı il dekabr ayı III ongünlüyündə	S.Gülməmmədov F.Qarayev Z.Almazov M.Hüseynova N.İsmayılova	
6.	Tədbirlərin nəticələri ilə bağlı KİV-də və televiziyalarda yayımlanan məlumatların, fotoşəkillərin, filmin və video materialların toplanması, Palatanın internet səhifəsində rubrikanın yaradılması və həmin səhifədə yerləşdirilməsi	Bir həftə müddətində	F.Qarayev A.Bayramova Z.Almazov	
7.	Tədbirlərdə iştirak edən xarici qurumların nümayəndələrini müşayiət edən Palata üzvlərinə və əməkdaşlarına təşəkkür məktubunun göndərilməsi	Bir həftə müddətində	S.Gülməmmədov	

Tədbirlər Planına uyğun olaraq aşağıdakı 15 bəndlər üzrə işlər icra olunmuşdur:

- «Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol» mövzusunda beynəlxalq elmi-praktik konfransın iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə ünvanlanmış müraciətin göndərilməsi və Palatanın saytında yerləşdirilməsi – 2026-cı il 17 sentyabr tarixində icra olunmuşdur.
- Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illik yubileyinə həsr edilmiş tədbirin və «Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol» mövzusunda beynəlxalq elmi-praktik konfransın yekunları barədə hesabatın Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına göndərilməsi - 2026-cı il 21 sentyabr tarixində icra olunmuşdur.
- Tədbirlərin nəticələri ilə bağlı KİV-də və televiziyalarda yayımlanan məlumatların, fotoşəkillərin, filmin və video materialların toplanması, Palatanın internet səhifəsində rubrikanın yaradılması və həmin səhifədə yerləşdirilməsi - 2026-cı il 22 sentyabr tarixində icra olunmuşdur.
- Tədbirlərdə iştirak edən xarici qurumların nümayəndələrini müşayiət edən Palata üzvlərinə və əməkdaşlarına təşəkkür məktubunun göndərilməsi - 2026-cı il 21 sentyabr tarixində icra olunmuşdur.
- Tədbirlərin keçirilməsinə sponsorluq edən Auditorlar Palatasının üzvlərinə təşəkkür məktubunun göndərilməsi - 2026-cı il 23 sentyabr tarixində icra olunmuşdur.
- Tədbirlərin keçirilməsinə sponsorluq edən Auditorlar Palatasının üzvlərinin şəxsi işlərinə müvafiq qeydlərin aparılması - 2026-cı il 29 sentyabr tarixində icra olunmuşdur.
- Tədbirlərin işində iştirak edən yerli və xarici məruzəçilərə minnətdarlıq məktubunun göndərilməsi - 2026-cı il 21 sentyabr tarixində icra olunmuşdur.
- Tədbirlərlə bağlı məlumatların (ingilis və rus dillərində), foto və video materialların tədbirdə iştirak edən xarici nümayəndələrə çatdırılması - 2026-cı il 22 sentyabr tarixində icra olunmuşdur.
- Tədbirlərin fotoşəkillərinin və video materiallarının elektron qaydada Palatanın internet səhifəsində yerləşdirilməsi - 2026-cı il 22 sentyabr tarixində icra olunmuşdur.
- Tədbirlərlə bağlı materialların, məruzə və təqdimatların, foto və video çəkilişlərin iki nüsxədə Palatanın arxivinə təhvil verilməsi - 2026-cı il 02 oktyabr tarixində icra olunmuşdur.
- Konfransda çıxış edən məruzəçilərin məruzə və təqdimatlarının toplanması - 2026-cı il 22 sentyabr tarixində icra olunmuşdur.
- Türk Dövlətlərinin Mühasibat və Audit Peşə Tənzimləyici Qurumları Birliyinin yaradılmasına dair imzalanmış Nizamnamənin müddəalarından irəli gələn işlərin icrasına dair Tədbirlər Planının layihəsinin hazırlanması – 2026-cı il 01 oktyabr taixində icra olunmuşdur.
- Türk Dövlətlərinin Mühasibat və Audit Peşə Tənzimləyici Qurumları Birliyinin fəaliyyətə başlaması üçün təkliflər paketinin hazırlanması və baxılması üçün rəhbərliyə təqdim edilməsi - 2026-cı il 02 oktyabr taixində icra olunmuşdur.
- Azərbaycan Respublikasının Auditorlar Palatası - 30 il kitabının paylanılması ilə əlaqədar müvafiq siyahının hazırlanması və ünvanlara çatdırılması – 2026-cı il 07 oktyabr tarixində icra olunmuşdur.
- Azərbaycan Respublikası Auditorlar Palatası ilə Pakistanın İmtiyazlı Mühasiblər İnstitutu (ICAP) arasında yenilənmiş Əməkdaşlıq Memorandumunun müddəalarından irəli gələn işlərin icrasına dair Tədbirlər Planının layihəsini hazırlayıb Palatanın rəhbərliyinə təqdim edilməsi – 2026-cı il 08 oktyabr tarixində icra olunmuşdur.

- Tədbirlər Planında 4 bəndlər üzrə işlər isə hazırda davam etdirilir:

- 2026-cı il 16 sentyabr tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin «Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol» mövzusunda beynəlxalq elmi-praktik konfransın iştirakçılarına göndərdiyi təbrik məktubundan irəli gələn vəzifələrin icrasına dair Tədbirlər Planının layihəsinin hazırlanması (3-cü bənd: məsul şəxslər-Q.Əhmədov, Ə.Aslanov).
- Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illik yubileyi ilə əlaqədar əməkdaşların və üzvlərin fərqləndirilməsinə dair təkliflərin hazırlanması və rəhbərliyə təqdim edilməsi (4-cü bənd: məsul şəxslər-S.Gülməmmədov).
- Palatanın əməkdaşlarına və üzvlərinə Dövlət təltiflərinin, təşəkkürnamələrin və digər təltiflərin müvafiq şəxslərin iştirakı ilə təqdim edilməsi (5-ci bənd: məsul şəxslər - S.Gülməmmədov, F.Qarayev, Z.Almazov, M.Hüseynova, N.İsmayılova).
- Konfransa təqdim olunan məruzə və tezislərdəki təkliflər təhlil edilərək onların həyata keçirilməsi üzrə tövsiyələrin hazırlanıb rəhbərliyə təqdim olunması (15-ci bənd: məsul şəxs-Q.Əhmədov).

Diqqətiniz üçün təşəkkürlər 🙏

- Azərbaycan Respublikasının Auditorlar Palatası
- Tel/faks: (012) 498-28-55
- Email: audit-azerbaijan@audit.gov.az
- Veb-sayt: https://www.audit.gov.az